# Kürdəmirdə Respublika Gününə həsr olunmuş "dəyirmi masa"



❒ ***Rayonun Heydər Əliyev Mərkəzində 28 May Respublika Günü münasibətilə "Şərqin ilk demoktarik Respublikası-Azərbaycan Xalq Cümhuriyyəti" mövzusunda "dəyirmi masa" keçirilib.***

Tədbir iştirakçıları əvvəlcə müasir, müstəqil Azərbaycan Respublikasının qurucusu ulu öndər Heydər Əliyevin abidəsi önünə gül-çiçək dəstələri düzüblər.

Dəyirmi masa Azərbaycan Respublikasının Dövlət Himninin səslənməsi ilə başladı. Kürdəmir şəhər 6 saylı tam orta məktəbinin şagirdlərinin ifasında təqdim olunan "Azərbaycanım" ədəbi-bədii kompozisiyası tədbir iştirakçıları tərəfindən maraqla qarşılandı.

"Azərbaycan Xalq Cümhuriyyəti Şərqdə ilk demokratik dövlət kimi" mövzusunda şəhər 2 saylı tam orta məktəbin tarix müəllimi Ülviyyə Şükürova, "Azərbaycan Xalq Cümhuriyyəti dövründə Azərbaycan qadını" mövzusunda şəhər 3 saylı məktəbin dil-ədəbiyyat müəllimi Əsbət Müsayeva, "Azərbaycan Xalq Cümhuriyyətinin suqutu tarixi şəraitin zərurəti idi" mövzusunda gənc könüllü Sahilə Müseyibova, "Azərbaycan Xalq Cümhuriyyəti dövründə ordu quruculuğu" mövzusunda N saylı hərbi hissənin zabiti, mayor Şamo Rəsulov məruzələrlə çıxış ediblər. Vurğulanıb ki, ulu öndər Heydər Əliyev irsinin həyata keçirilməsi, onun ideyalarının reallaşdırılması Prezidentimiz İlham Əliyev cənablarının məqsədyönlü siyasətinin əsasını təşkil edir.

Tədbirdə çıxış edən Kürdəmir Rayon İcra Hakimiyyətinin başçısı Ceyhun Cəfərov Respublika günü münasibətilə tədbir iştirakçılarını təbrik edərək bildirib ki, 1918-ci ildə Şərqdə ilk dəfə Azərbaycan Xalq Cümhuriyyətinin – müstəqil Azərbaycan dövlətinin rəsmən yaranması milli dövlətçilik tariximizdə öz önəmi və dəyəri, böyük tarixi əhəmiyyəti olan hadisədir. Cəmi 23 ay yaşamasına baxmayaraq AXC-nin həyata keçirdiyi silsilə tədbirlər müstəqil demokratik dövlət kimi fəaliyyət göstərməsinə tutarlı faktdır. Elm, təhsil, siyasət, dil, ədəbiyyat, səhiyyə, demokratik qanunlar, ordu, milli valyuta və sair sahələrdə aparılan islahatlar, verilmiş qərarlar və qanunlar qısa zamanda demokratik dövlətimizin, müstəqil Azərbaycan Xalq Cümhuriyyətinin beynəlxalq miqyasda varlığını bəlli etdi.

Lakin xarici düşmən qüvvələr, xüsusilə rus-bolşevik hökuməti, daxili antidemokratik qüvvələrlə, düşmənlərlə əlbir olaraq milli dövlətimizin varlığına son qoydular. 1920-ci il aprelin 28-i xalqımızın tarixinə qara ləkə kimi düşdü, bolşevik-sovet imperiyasının boyunduruğu altına düşdük. Bu əsarət düz 70 il çəkdi. Lakin ziyalılarımız, milli ruhu öz qəlbində gəzdirən insanlarımız müstəqillik uğrunda, istiqlaliyyət uğrunda mübarizədən bir an da kənarda qalmadılar.

Nəhayət ki, XX əsrin 80-ci illərinin sonlarında sovetlər imperiyasında daxili ziddiyyətlərin baş qaldırması, imperiyanın dayaqlarının çökməsi bir çox xalqlara öz müstəqilliyini qazanmaq, milli dövlətini qurmaq xoşbəxtliyini verdi. Azərbaycan xalqı da demokratik qüvvələrin, siyasi liderlərin rəhbərliyi altında müstəqillik uğrunda mübarizəsini gücləndirdi. Və bu mübarizə yeni müstəqil Azərbaycan dövlətini yaratmaq zərurətini meydana çıxardı. Bütün təzyiqlərə, qan tökülməsinə baxmayaraq, Azərbaycan öz müstəqilliyini təkrarən bərpa etdi.

Qarşıda taleyüklü məsələ – Azərbaycan dövlətini qoruyub saxlamaq, xalqı vahid cəbhədə birləşdirərək, həm daxili, həm də xarici düşmənlərə qarşı mübarizə aparmaq dururdu. Xalqın təkidi ilə 1993-cü ilin iyununda ulu öndər Heydər Əliyevin siyasi hakimiyyətə gəlişi milli birlik yaratmaq, dövlətçiliyimizi qoruyub saxlamaq uğrunda fəal mübarizəyə başlaması zərurət oldu.

Qeyd olunub ki, Azərbaycanın iqtisadi, siyasi müstəqilliyini qoruyub-saxlamaq, beynəlxalq miqyasda əməkdaşlıq, kollektiv təhlükəsizlik, antiterror əməliyyatlarında iştirak etmək, regionda sülhün bərqərar olması Heydər Əliyevin dövlətçilik kursunun ən mühüm tərkib hissəsini təşkil edir. Bu gün Prezidentimiz İlham Əliyevin məqsədyönlü siyasəti nətcəsində reallığa çevrilmişdir. İqtisadi və sosial inkişafa dair qəbul edilən dövlət proqramlarının yerinə yetirilməsi sahəsində Azərbaycan dövlətinin dayaqları möhkəmlənir, yenilməz olur.

Axşam Qələbə parkında incəsənət ustalarının iştirakı ilə bayram konserti olub.

***İlqar HƏSƏNOV,***
***"Xalq qəzeti"nin bölgə müxbiri***